# “Poeziyamızın ağ çiçəyi”

**Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda mərhum unudulmaz şair Nurəngiz Günün anadan olmasının 85 illiyinə həsr olunmuş “Poeziyamızın ağ çiçəyi–Nurəngiz Gün” adlı toplantı keçirilib. Tədbiri AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli açaraq Nurəngiz xanımın poeziyasının çağdaş ədəbiyyatımızda əhəmiyyətindən söz açıb.**

Sonra Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli, Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov Nurəngiz Gün poeziyasının bir çox səciyyəvi cəhətlərindən söz açıblar.

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun ədəbi tənqid şöbəsinin müdiri, filologiya elmləri doktoru Vaqif Yusifli “Nurəngiz Gün sənətinin özəllikləri”, filogiya elmləri doktoru Esmira Fuad “Nurəngiz Gün nəsrində “qırmızı qaranlıqlar”la poetik üzləşmələr”, filologiya üzrə fəlsəfə doktoru Bahar Bərdəli “Nurəngiz




Günün poetik yaradıcılığı”, filologiya üzrə fəlsəfə doktoru, dosent Nərgiz Cabbarlı “Nurəngiz Gün poeziyasında insan–cəmiyyət və insan–təbiət münasibətlərində harmoniya axtarışı” mövzularında məruzələr ediblər.

Tədbirdə Xalq şairi Vahid Əziz, Milli Məclisin deputatları Hicran Hüseynova, Musa Urud, Xalq yazıçısı Elmira Axundova Nurəngiz Gün yaradıcılığının Azərbaycan ədəbiyyatında özünəməxsusluğu haqqında fikirlərini bildirdilər.

Sonda Nurəngiz Günün qızı, filologiya elmləri doktoru, professor, Milli Məclisin deputatı Jalə Əliyeva AMEA-nın rəhbərliyinə, tədbir iştirakçılarına, Nurəngiz Gün sənətinin incəliklərini öyrənən alimlərə minnətdarlığını bildirib.

***Kəmalə ABDİNOVA***
***XQ***

Xalq qəzeti .- 2024.- 12 yanvar, № 005.- S.12.